# Azərbaycan Prezidenti İlham Əliyev ölkədə qismən səfərbərlik elan edilməsi haqqında Sərəncam imzalayıb

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilsin.

2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

"Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə əsasən, ümumi və ya qismən səfərbərlik Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilir.

Səfərbərlik elan olunarkən hərbi xidmətdə olan bütün şəxslər xüsusi sərəncam veriləndək xidmətdə saxlanılır, hərbi vəzifəlilər isə hərbi xidmətə çağırılır, həm də səhhətə görə möhlət və azadetmə istisna olmaqla bu Qanunun IV fəslində müəyyən edilmiş möhlətin və çağırışdan azadetmənin tətbiqi dayandırılır.

Müharibə dövründə səfərbərlik elan edilərkən və sonrakı çağırışlar zamanı 18 yaşından son yaş həddinədək hərbi vəzifəlilər və çağırışçılar, hərbi qeydiyyatda olmayan 18 yaşından 45 yaşınadək qadınlar hərbi xidmətə çağırıla bilər.

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb.

# Qəbələ Rayon İcra Hakimiyyətində vətəndaşların növbəti onlayn qəbulu





Qəbələ Rayon İcra Hakimiyyətində sakinlərinin qarşılaşdığı problemlər və onların həlli həmişə diqqət mərkəzindədir və bununla bağlı mütəmadi görüşlər keçirilir. Bu məqsədlə sentyabrın 25-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların növbəti onlayn qəbulu keçirilib. Qəbul zamanı vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər dinlənilmiş, onları narahat edən bir sıra məsələlər yerindəcə həll olunub və qarşılaşdıqları digər problemlərin həlli istiqamətində aidiyyəti üzrə tapşırıqlar verilmişdir.

# Türkiyə–Azərbaycan bir millət–iki dövlət

Bu gün Azərbaycanla Türkiyəni yalnız ortaq milli-mənəvi dəyərlər deyil, həmçinin, siyasi mahiyyət daşıyan ortaq iqtisadi layihələr, qarşıya qoyulan eyni hədəflər və müştərək siyasi maraqlar birləşdirir.

Azərbaycan ATƏT-in Minsk qrupunun fəaliyyətindən narazıdır. Bu qanunun indiyədək olan fəaliyyəti sadəcə status-kvonun qorunub saxlanılmasına xidmət edir. Bundan razı qalan yalnız Ermənistandır. O, Minsk qrupunun fəaliyyətinin tərəfdarıdır. Çünki bu formatın saxlanılması münaqişənin həllinin uzanmasına və Qarabağda erməni işğalının davam etməsinə gətirib çıxarır. Azərbaycan qrupa üzv olan digər ölkələrin də prosesdə aktiv iştirakını istəyir.

Türkiyə Minsk qrupunun üzvlərindən biridir və prosesə vasitəçi kimi qatılması vəziyyəti tamam dəyişə, danışıqlarda nəticənin əldə edilməsinə gətirib çıxara bilər.

Buna görə də, Türkiyənin Minsk qrupunda aktiv vasitəçi kimi olaraq iştirak etməsi Ermənistan tərəfindən heç də xoş qarşılanmayır.

Ermənistan Prezidentinin müşaviri Tevan Poqosyan qeyd edir ki, Bakı Ankaranın yardımı ilə Qarabağ münaqişəsini ya sülh, ya da hərb yolu ilə çözəcək. Bu səbəbdən o, Yerevanın Türkiyə amilinə daha çox diqqət yetirməsini vacib sayır. Regionda Azrbaycan-Türkiyə faktoru güclənir. Azərbaycan -Türkiyə ilə indi çox aktiv şəkildə hansısa əməliyyatlara hazırlaşır.

Ermənistanın belə imkanları getdikcə məhdudlaşır.

Qarabağdakı qondarma qurumunun sabiq "nümayəndəsi" Tiqran Abrahamyan bildirir ki, "Türkiyə və Azərbaycan ortaq media platforması yaradır, rəsmi açıqlamalara görə, bunun məqsədi təhlükəsizlik sahəsinin təhdidləridir". O, qeyd edib ki, Türkiyə-Azərbaycan ortaq media platforması Ermənistan və diaspor üçün böyük cəbhə açır.

Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin vurğuladığı kimi, televiziyadan kino sektorundakı bütün sahələr üzrə birgə layihələrin həyata keçirilməsi, mütəxəssis mübadilə proqramlarının hazırlanması, eləcə də texnologiya sahəsində əməkdaşlıq hər iki ölkəyə qarşı həyata keçirilən qarayaxma kompaniyası ilə mübarizədə əhəmiyyətli rol oynayacaq.

Bu mediya platforması reallaşdığı təqdirdə özünə yeni tərəfdaşlar da cəlb edəcək. Məsələn, növbəti mərhələdə bu platformaya Türk Şurasına üzv olan digər qardaş ölkələrin də mediası qoşula bilər. Bu isə yalançı erməni təbliğatına qarşı daha böyük cəbhə formalaşması deməkdir. Azərbaycan -Türkiyə əməkdaşlığı fonunda Ermənistanı narahat edən əsas məqamlardan biri də budur.

**"Qəbələ"**

# Azərbaycan gücündən istifadə edərək ərazi bütövlüyünə nail olacaq

Azərbaycan danışıqlar prosesində həmişə ədalətli, prinsipial və beynəlxalq hüquqa əsaslanan mövqe nümayiş etdirib. Bu dəyişməz mövqeyi Prezident İlham Əliyev xarici ölkələrə səfərlərində, eləcə də ölkəmizə gələn nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin rəhbərlərinin diqqətinə dəfələrlə çatdırıb. Rəsmi Bakı münaqişənin məhz beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında həllinin tərəfdarı kimi çıxış edir. İşğal faktı ilə barışmayacağını hər zaman bəyan edən Azərbaycan danışıqların sonadək nəticəsiz qalacağı təqdirdə münaqişənin həllində güc yoluna əl atacağını gizlətmir.

Ermənistan və Azərbaycan arasında 1994-cü il mayın 12-də atəşkəs rejiminin tətbiqini nəzərdə tutan Bişkek müqaviləsinin imzalanmasından 26 il keçsə də, Yerevanın qeyri-konstruktiv, təcavüzkar siyasəti üzündən münaqişəni dinc yolla tənzimləmək cəhdləri hələ ki fayda verməyib. Keçən illərdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) vasitəçiliyi ilə aparılan danışıqlar prosesi bir neçə dəfə problemin real həlli müstəvisinə yönəlsə də, Ermənistan rəhbərliyinin aşkar siyasi cığallığı və siyasi qətiyyətsizliyi üzündən sülhə gəlmək mümkün olmayıb. Ermənistanın təcavüzkar dövlət olmasına, işğalçılıq siyasəti yürütməsinə açıq-aşkar göz yumulur. Bu, bir yana, "demokratiya carçıları" Azərbaycandakı müsbət meyillərə kölgə salmağa çalışdıqları halda, təcavüzkar dövlətin daxilində cərəyan edən antidemokratik proseslərə, dövlətin antihumanist, insanlığa qarşı yönəlmiş zorakı addımlarına da göz yumurlar.

Təbii ki, Ermənistanın istənilən addımı cavabsız qalmayacaq.

**"Azərbaycan"**

# Biz gedirik bu Vətəni qoruyaq

Vətənimizin hər qarışı bizim üçün doğmadır, əzizdir. Vətənimiz bölünməzdir. Erməni işğalçılarının torpaqlarımızın bir hissəsini zəbt etməsi, qaçqın və köçkün həyatı sürən həmvətənlərimizin öz isti ocağından didərgin düşməsi bu gün döyüş bölgələrinə könüllü ərizə verən gəncləri hələ məktəb illərindən düşündürür, torpaqlarımızın işğaldan təmizləmək arzusu onların qəlbini heç rahat buraxmırdı. Azad Vətənin vətəndaşı olmaq arzusu onları milli vətənpərvər, əsil döyüşçü əzmilə yetişdirdi.

İşğalçı ermənilərin atəşkəsi pozması və igidlərimizin torpaqlarımızı işğaldan təmizləmək üçün döyüşməsi bu gün könüllü gəncləri narahat etməyə bilməzdi.

Onlar milli vətənpərvər ruhlu, düşmənə kəskin nifrət bəsləyən, şəhidlərimizin qanının yerdə qalmaması üçün işğalçıları məhv etmək istəyən qəbələli gənclərdir. Hər gün rayon hərbi komissarlığının qarşısında könüllü vətənpərvər gənclər təkrar ordu xidmətlərinə gedərək təlimlərdə iştirak etmək və torpaqlarımızın azadlığı uğrunda mübarizə aparmaq üçün ərizə yazır. Onlar döyüş bölgələrində olan həmvətənlərinin yanında olmaq, düşmənin təxribatlarına şücaətlə cavab verməyə tələsirlər. Hər birinin könlündə qələbə əzmi və dillərində isə bu zümzümə var:

***Biz gedirik bu vətəni qoruyaq,***
***Bizimkidir bu gələcək, bu həyat!***

Vətən uğrunda ölümdən belə qorxmayan igid övladlarımızı, əsgərlərimizi qorusun! Allaha əmanət olun! Qələbə əzmi ilə döyüşən bütün igid eloğlularımız-Qələbə sizindir, Qələbə bizimdir. Yolunuz açıq olsun!

**BİBİXANIM.**